# “Əməkdar müəllimlərimizi tanıyaq”

“Əməkdar müəllimlərimizi tanıyaq” rubrikasında bu dəfə oxucularımıza Siyəzən şəhər C.Cabbarlı adına 1 nömrəli tam orta məktəbin direktoru Nəcməddin Mürvətov və Gədəbəy şəhər Milli Qəhrəman İlham Əliyev adına 1 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Valeh Əsgərovun hekayələrini təqdim edəcəyik.

## Müəllimlikdən başlayan uğur hekayəsi

Siyəzən şəhər C.Cabbarlı adına 1 nömrəli tam orta məktəbin direktoru, “Tərəqqi” medallı Əməkdar müəllim Nəcməddin Mürvətov... O, həmin Nəcməddin Mürvətovdur ki, ömrünün 45 ilini məktəb direktoru olaraq keçirib.

### Müəllimliyin ilk 3 ilində 3 fəndən dərs deyib

Nəcməddin Mürvətov 1953-cü ildə Dəvəçi rayonunun Yuxarı Ələz kəndində anadan olub. Parta arxasına ilk dəfə Yuxarı Ələz kənd ibtidai məktəbində keçib. Ancaq ailəsi Siyəzən şəhərinə köçdüyündən Siyəzən şəhər C.Cabbarlı adına 1 nömrəli tam orta məktəbdən məzun olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (o qəbul olunduğu illərdə universitet V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu adlanırdı) riyaziyyat fakültəsində oxuyub. 1974-cü ildə institutu “Riyaziyyat müəllimi” ixtisası üzrə bitirərək Dəvəçiyə qayıdıb. Rayonun Böyük Həmyə kənd 8 illik məktəbində müəllimliyə başlayıb. Deyir ki, məktəbdə o illərdə müəllim qıtlığı vardı. Hətta kimya və fizika müəllimləri olmadığından riyaziyyatla yanaşı, bu fənləri də tədris edib. Odur ki, müəllim işlədiyi 3 il ərzində 3 fəndən dərs deyib.

### 45 il direktor vəzifəsində

Həyatı hələ ali məktəbdə oxuduğu illərdə başlayıb. İctimai vəzifələrdə – qrup komsomol təşkilatının katibi, fakültə həmkarlar təşkilatının büro üzvü kimi idarəetmə təcrübəsi toplayıb. Məktəbdə müəllimliyə başlayandan 3 il sonra isə ona direktorluq həvalə edilib: “3 il idi müəllim işləyirdim. Qanunla direktor ola bilməzdim. Ancaq məktəbdə ali təhsilli 4 nəfər idik. Bir nəfər direktorluqdan azad olunmuşdu, bir nəfər kənd sovetinə sədr getdi, bir nəfər istəmədi və məni direktor təyin etdilər”.

O gündən Nəcməddin müəllim direktordur. 1977-ci ildən Böyük Həmyə kənd məktəbinə direktor təyin edilib və bu vəzifəni düz 30 il daşıyıb. Bu 30 ildə məktəbin həyatında böyük dəyişikliklər olub. Təhsil ocağı ümumi orta məktəbdən tam orta məktəbə çevrilib, ali təhsilli müəllimlərin sayı artıb, Ukrayna məktəbliləri ilə dostluq əlaqələri qurulub. Rayonda tanınan məktəb olan Böyük Həmyə tam orta məktəbi şagirdlərinin fəallığı ilə seçilib.

N.Mürvətov 2008-ci ildən Siyəzən şəhər C.Cabbarlı adına 1 nömrəli tam orta məktəbin direktorudur. Məktəb indi bilik yarışlarında olimpiada qalibləri, idman yarışlarında isə Avropa çempionları ilə öyünür. N.Mürvətovun direktor olması ilə uğurları artan məktəb “İlin məktəbi” müsabiqəsinin qaliblərindəndir.






Riyaziyyat müəllimi ola-ola fizika və kimyadan dərs deyən Nəcməddin müəllim humanitar sahədə də öz sözünü deyib, şeirlər yazıb, kitablar nəşr etdirib. Bir sözlə, məşhur direktor həm də tanınmış şair, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 2008-ci ildə “Tərəqqi” medalı, 2014-cü ildə “Qızıl Qələm”, 2015-ci ildə Həsən bəy Zərdabi adına media və Cabir Novruz Mədəniyyət Fondunun mükafatlarını alıb. 2015-ci ildən Əməkdar müəllimdir. 2018-ci ildə Prezident təqaüdünə layiq görülüb. Beynəlxalq Rəsul Rza mükafatçısıdır.

### Məktəbi yüksəlişdə...

1300 şagirdi olan Siyəzən şəhər C.Cabbarlı adına 1 nömrəli tam orta məktəbi rayonun qabaqcıllarındandır. Ötən tədris ilində Siyəzəndən olan 2 olimpiada qalibi məhz bu məktəbin şagirdidir. Bu il ali təhsil müəssisəsinə qəbul imtahanlarında iştirak edərək 600-dən yuxarı bal toplayan 8 siyəzənli şagirdin 4-ü C.Cabbarlı adına 1 nömrəli tam orta məktəbin məzunudur.

Nəcməddin müəllim üçün isə artıq müəllimlik yolunun sonudur: “Artıq 69 yaşım var. Bu il məktəblə vidalaşacağam”.